AYGÜN SALMANOVA
Bakı Avrasiya universiteti
Həsən Əliyev 135 A
salmanovaaygün10@gmail.com

DİPLOMATİK TERMİNLƏRİN YARANMA YOLLARI

Xülasə

Bu məqalədə müxtəlif sistemli iki dildə "Diplomatik terminlərin yaranma yolları"ndan danışılıb. İngilis və Azərbaycan dillərində terminlərin gerçəkləşməsi bir çox üsulların köməyi ilə mümkün olur. Həmin üsullardan a) kalka etmə üsulu; b) abreviatur üsulu və c) alınma üsulla yaranan terminlər haqqında ətraflı məlumat verilib. Milli dil vahidləri terminyaratma prosesində mühüm rolu ilə seçilir. Belə ki, bu prosesdə istər milli dilin müxtəlif mahiyyət daşıyan leksik vahidləri, istərsə də milli dillərin terminyaratma elementləri öz məhsuldar səciyyəsi ilə seçilir. Dilin daxili imkanları hesabına və abreviatur yolla yaranan terminlərdən başqa, alınmalar hesabına yaranan terminlərin də diplomatik dilin zənginləşməsində böyük rolu var. Həm Azərbaycan, həm də İngilis dilində diplomatik terminoloji bazanın formalaşmasında alınma terminlərin də rolu danılmazdır. Adətən əcnəbi alınma sözlərinin tədqiqi bu və ya digər dildə həmin dillərə başqa dillərdən keçmiş sözlər kimi qəbul edilir. Bu son dərəcə mürəkkəb bir hadisədir və sadəcə bir modelin digər bir modellə eyniləşdirilməsi deyildir, bu, eyni zamanda sözün bir dildə mövcud olan sözlər sırasına sinonimin daxil olması, həmin dilin fonoloji sisteminə müvafiq olaraq səs qabığının qanunauyğun dəyişilməsi və bu dilin qrammatik formaları üçün xarakterik olan yeni keyfiyyət qazanmasıdır. Diplomatik terminlərin yaranmasında digər bir üsul olan yeni yaranan diplomatiya sahələrinə aid abreviaturlar öz növbəsində müqayisə olunan dillərin leksik layının genişlənməsinə, zənginləşməsinə onun ifadə imkanlarının artmasına kömək edir. Həm kalka, həm abreviatur həm də alınma yolla yaranan diplomatik terminlər müxtəlifsistemli hər iki dilin lüğət bazasının formalaşmasında vacib rol oynayır.

Açar sözlər: diplomatiya, dil, termin, mənşə, sistem.

Termin – latınca terminus sözündən götürülüb sərhəd, son deməkdir və hansısa sahənin predmetləri, halları, anlayışları üçün ixtisaslaşmış məzmun daşıyır. Adi sözlərdən fərqli olaraq terminlər birmənalıdır və ədəbi izah deyil. Həm milli həm də alınma dil vahidləri terminyaratma prosesində mühüm rolu ilə seçilir. Belə ki, bu prosesdə istər milli dilin müxtəlif mahiyyət daşıyan leksik vahidləri, istərsə də alınmalar hesabına formalaşan dil vahidləri öz məhsuldar səciyyəsi ilə seçilir. Bu zaman onu da xüsusi olaraq göstərmək lazımdır ki, terminyaratma prosesində tətbiq olunan sözyaratma üsullarının ümumi leksikanın sözyaratma üsulları ilə təxminən eynilik təşkil etməsi dilçilikdə dəfələrlə qeyd edilmişdir. Lakin dilçilikdə o da nəzərə alınır ki, bəzi terminoloji sahələrə aid terminyaratmada ayrı-ayrı dil elementlərindən fərqli şəkildə də istifadə edilir. Daha çox hallarda isə terminyaratma üsul və formaları ilə eyniyyət təşkil etdiyini xüsusi olaraq qeyd etmək lazımdır.

Terminologiyada daha çox işlədilən və bu elmin əsasında duran "termin" sözü latın mənşəli olmaqla (terminus) "sərhəd", "hüdud", "həddə" mənalarını verir. Bu söz və onun dildə mənası xüsusi termin kimi müxtəlif cür izah edilir. Məsələn, "Azərbaycan dilinin izahlı lüğəti"ndə onun iki mənası verilir:

1. Elm, texnika, incəsənət və s. müəyyən ixtisas sahələrinə aid anlayışı dəqiq ifadə edən söz (və ya söz birləşməsi); istilah.

2. Məntiqdə: hökmün tərkib elementi (obyekt və predikat).

"Böyük dilçilik – ensklopedik lüğət"ində isə terminə bu cür izah verilir: "Xüsusi bilik və fəaliyyət sahəsinə aid anlayışları ifadə edən söz və ya söz birləşməsi" (2,79).

Oksford lüğətində termin sözünün izahı bu cür verilib. "A word or phrase used to describe a thing or to express a concept, especially in a particular kind of language or branch of study" – "Müəyyən bir dilin və ya araşdırma sahəsinin növündə bir şeyi təsvir etmək üçün istifadə edilən bir söz və ya ifadə"(10, 1).

İngilis və Azərbaycan dillərində terminlərin gerçəkləşməsi bir çox üsulların köməyi ilə mümkün olur. Həmin üsullar aşağıdakılardır:

a) leksik-semantik üsul; b) morfoloji üsul; c) sintaktik üsul; ç) kalka etmə üsulu; d) abreviatur üsulu.

Milli dil vahidləri terminyaratma prosesində mühüm rolu ilə seçilir. Belə ki, bu prosesdə istər milli dilin müxtəlif mahiyyət daşıyan leksik vahidləri, istərsə də milli dillərin terminyaratma elementləri öz məhsuldar səciyyəsi ilə seçilir. Dilin daxili imkanları əsasında formalaşan terminlərin yaranmasında kalka etmə üsulu vacib rol oynayır.

Diplomatik terminlərin formalaşmasında kalka üsulu.

Kalka üsulu ilə terminlər yaradılarkən əsas rolu sözlərin quruluşu oynayır, yəni müəyyən bir dildə sözlər digər bir dilə məxsus sözlərin quruluşu kimi formalaşır. "Kalkalar... müvafiq əcnəbi sözlərin quruluşu kimi formalaşan, lakin onlar maddi əsası olmayan sözlərdir (3, 88). Kalkaetmə terminin digər dillərdən süni şəkildə tərcümə olunması nəticəsində müəyyən bir termin, termin birləşməsi əvvəl dildə mövcud olmamış yeni məna qazanır .

Qeyd etmək lazımdır ki, kalkaetmə zamanı bütün anlayışlar İngilis və Azərbaycan dilinə məxsus olan sözlərlə verilir. Bu prosesdə 2 iki dilin qrammatik vasitələri köməyə gəlir. Bildiyimiz kimi, Avropa dilləri flektiv, türk dilləri isə iltisaqi dillər qrupuna daxildir. Kalka edən və kalka olunan dillərdəki söz və söz birləşmələrinin strukturundan asılı olaraq bu dəqiqlikdən kənara çıxılması halları mümkündür.Məsələn, kalka edilən birləşmənin birinci hissəsi mənbə dildə, əsasən, olduğu kimi qala bilir (5, 16). Müqayisə et: *дипломатический отношения* (rus dilində) = *diplomatik münasibət* (Azərbaycan dili) = *diplomatic relation* (İngilis dili) = *дипломатический язык* (rus dilində) = *diplomatik dil* (Azərbaycan dili) = *diplomatic language* (İngilis dili) = *дипласпорт* (rus dili) = *diplomatik pasport* (Azərbaycan dli) = *diplomatic passport* (İngilis dili). İngilis dilində olan diplomatik termin və termin birləşmələr həm olduğu kimi və ya qismən fonetik dəyişikliklə, həm də tərcümə şəklində verilir:

a) Olduğu kimi və ya qismən dəyişikliklə kalkalaşanlar: concordat – konkordat (dövlətlə Vatikan arasında imzalanmış saziş); confrontation – konfrantasiya (heç bir tərəfin güzəştə getmək istəmədiyi və fiziki konfliktə çevrilmək təhlükəsi doğuran vəziyyət (adətən 2 dövlətin münasibətlərində); contract – kontrakt (iki və ya daha çox tərəfin müəyyən öhdəliklər götürdüyü yazılı və ya şifahi formada olan saziş).

b) Tərcümə şəklində kalkalaşanlar: qold standart – qızıl standart; floatinq debt – qısamüddətli debt; sammit – yüksək, yuxarı; reparatio – bərpa etmək; de-yure – hüquqi tanınma və s.

Beləliklə, diplomatik terminlərin kalka etmə prosesində 2 dildən biri mənbə dili, digəri isə mənbə dildəki modelə uyğun öz daxili imkanları ilə termin yaradan dil vacib rol oynayır.

Alınma yolla yaranan diplomatik terminlər.

Həm Azərbaycan, həm də İngilis dilində diplomatik terminoloji bazanın formalaşmasında alınma terminlərin də rolu danılmazdır. "Adətən əcnəbi alınma sözlərinin tədqiqi bu və ya digər dildə həmin dillərə başqa dillərdən keçmiş sözlər kimi qəbul edilir, lakin bu bir kisədən başqa bir kisəyə boşaldılan taxılı xatırladan sadə və mexaniki proses deyildir, bu, son dərəcə mürəkkəb bir hadisədir və sadəcə bir modelin digər bir modellə eyniləşdirilməsi deyildir, bu, eyni zamanda sözün bir dildə mövcud olan sözlər sırasına sinonimin və semantik sistemə daxil olmasıdır, həmin dilin fonoloji sisteminə müvafiq olaraq səs qabığının qanunauyğun dəyişilməsi və bu dilin qrammatik formaları üçün xarakterik olan yeni keyfiyyət qazanmasıdır" (2, 89).

İngilis və Azərbaycan dillərində diplomatik terminləri mənşə cəhətdən aşağıdakı qruplara ayırmaq olar:

1) Latın mənşəli terminlər: ad nok (lat. müəyyən məqsəd üçün), ad referendum (lat. sonrakı baxış, üçün), akklamasiya (lat. aclamatio- çığırmaq, qışqırmaq), akkreditə olunma (lat. accredere – inanmaq), status-statü (lat. status, durum, hal, işin vəziyyəti), status-kvo (lat. stanus,quo), statut (lat. statutum – qərara alaraq), seperat sülh (lat. separatus – ayrıca) və s (4,65).

2) Fransız mənşəli terminlər: aqreman (fr. Aqrement – razılıq), atteşe (fr. Attaşe)-diplomatik ranq), federasiya (fr. Federation, lat. foederatio – birləşmə, ittifaq), parlamentyor (fr. Parlamentaire – elçi), preambula (fr. Preambula – müqəddimə), unitar (fr. Unitaire, lat., unitas – birlik).

3) Yunan mənşəli: apatridlər (yun. Apatris – vətəni olmayan), demokratiya (yun. Demokratiya, hərfən xalq hakimiyyəti, demos – xalq və kratos – hakimiyyət), monarxiya (yun. Monarchiya – təkhakimiyyətlik).

4) İspan mənşəli: embarqo (isp. Embarqo – yasak, qadağan);

5) İngilis mənşəli: kapitoli (ing. apitol), kapitulyasiya (ing. Döyüşən tərəflərdən birinin müqavimətinin dayandırılması və silahlı qüvvələrin təslim olması), kommyunike (ing. Beynəlxalq danışıqların gedişi və nəticəsi haqqında rəsmi məlumat; "birgə kommunike" – "birgə məlumat"), kondominium (ing. Həmsahiblik, iki və daha çox dövlət tərəfindən eyni bir ərazidə ali hakimiyyətin həyata keçirilməsi), parlament (ing. Parlament - danışmaq sözündən) (9, 12).

6) İtalyan mənşəli: kontrobanda (it. Kontra - əks, bando – hökumət fərmanı), memorandum (it. – diplomatik sənədin növü), naturalizasiya (it. Naturalizasio, vətəndaşlığı qəbul etmə), nunsi (it. Pinzo, lat. nintiui – elçi).

Faktlar göstərir ki, diplomatik terminlərin böyük əksəriyyəti beynəlmiləl səciyyə daşıyır. Latın mənşəli diplomatik terminlər daha çoxluq təşkil edir. İspan mənşəli terminlərin sayı çox azdır.

Diplomatik terminlərin formalaşmasında abreviatur üsulu.

Abreviasiya – xüsusi linqvistik hadisədir. O, yeni tipli söz və termindir, dil sistemində terminyaratma üsullarından biridir. M. Qasımovun fikrincə, abreviatura üsulu ayrı-ayrı terminoloji sistemlərdə sözə qənaət edilməsinə, çoxsözlü terminlərin konkret terminlərlə əvəz olunmasına şərait yaradır. Bu üsul terminologiya sahəsində sinonimliyin aradan qaldırılması üçün də əhəmiyyətlidir (8, 140).

Tədqiqat göstərir ki, İngilis və Azərbaycan dillərində diplomatik abreviaturların 2 forması var. Tam və yarımçıq formalı abreviaturlar.

Tam formalı abreviaturlar: MDB (Müstəqil Dövlətlər Birliyi), ÜST (Ümumdünya Sülh təşkilatı). Bunlar müvafiq olaraq rus, yaxud ingilis dillərindəki formaların əsasında düzülmüşdür. Tam abreviatur – terminlər yalnız sözlərin baş hərfləri ilə verilən formalar kimi işlənir. Bunlarda tərcümə hərflərə görə yox, abreviaturların digər dillərdəki formalarına görə edilir (5, 17).

MDB (Müstəqil Dövlətlər Birliyi) - Commonwealth of Independent States (CIS)
BQX (Beynəlxalq Qızıl Xaç) - International Red Cross (IRC)
BƏT (Beynəlxalq Əmək Təşkilatı) - International Labor Organization (ILO)
BDA (Beynəlxalq Diplomatiya Akademiyası) –International Academy of Diplomacy(IAD)
ABŞ (Amerika Birləşmiş Ştatları) - United States of America (USA)
AB (Avropa Birliyi) - European Union (EU) və s.

Struktur –semantik cəhətdən abreviaturların aşağıdakı növləri var:
Yarımçıq formalı abreviaturlar. Burada terminlərin müəyyən hissələri qısaldılır. Məs: kordiplomatik (korpus diplomatik), dippasport (diplomatik pasport), dipkor (diplomatik korpus) və s. Hərfi ixtisarların aşağıdakı tipləri var:

Bir terminin ixtisarından (c. – cənub/south – s., q. – qərb/west – w. və s.), iki sözün ixtisarından (MM – Milli Məclis, AŞ – Avropa Şurası / CE - Council of Europe və s.), üç sözün ixtisarından (BMT – Birləşmiş Millətlər Təşkilatı/ United Nations - UN, ABŞ – Avropa Birliyi Şurası / US - European Union Council və s.), dörd sözün ixtisarından (ATƏT – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı/ OSCE - Organization for Security and Co-operation in Europe) ibarət olanlar. Diplomatik terminologiyada abreviaturlar özünü iki cür göstərir: a) akronimlər: kordiplomatik

(korpus diplomatik), dippasaport (diplomatik pasaport), Demkonqres. b) inisiallar: MDB, BMT,ÜST (Ümumdünya Səhiyyə Təşkilatı/World Health Organization-WHO), ÜSŞ (Ümumdünya Sülh Şurası/ World Peace Council- WPC), NATO (Şimali Atlantika Müqaviləsi Təşkilatı/ NATO-North Atlantic Treaty Organization) və s(7,51). Beləliklə, abreviatura üsulu ilə yaradılmış diplomatik terminlər terminoloji sistemdə sözə qənaət edilməsinə, çoxsözlü terminlərin konkret terminlərlə əvəz olunmasına şərait yaradır. Bu üsul terminologiya sahəsində sinonimliyin aradan qaldırılması üçün də faydalıdır.

Təhlil göstərir ki, müxtəlif sistemli hər iki dildə diplomatiya anlayışları çoxşaxəlidir. Onların dildə terminə çevrilməsi leksik, morfoloji, sintaktik və semantik ənənələrlə birbaşa bağlıdır. Bütün dillərdə, o cümlədən İngilis və Azərbaycan dillərində diplomatik terminlərin formalaşmasında digər sahələrdən fərqlənən ekstralinqvistik amillərin (beynəlxalq diplomatik münasibətlər və s.) rolu qüvvətlidir. İngilis və Azərbaycan dilində istifadə olunan diplomatik termin və terminoloji ifadələrin müəyyən edilməsi, əsasən, hər iki müxtəlif sistemli dilin daxili resusrslarına, o cümlədən, beynəlxalq aləmdən beynəlmiləl terminlərin alınmasına, müxtəlif mənşəli (latın, yunan, ingilis, fransız, ispan və s.) terminlərə müxtəlif morfoloji vasitələr (leksik şəkilçilər) əlavə olunmaqla yeni terminoloji vahidlərin yaradılmasına söykənir. Həm kalka, həm abreviatur həm də alınma yolla yaranan diplomatik terminlər müxtəlif sistemli hər iki dilin lüğət bazasının formalaşmasında vacib rol oynayır.

Ədəbiyyat

1. Cəfərov V. B. Diplomatik yazışma. Bakı: Elm. 1997, 71 s.
2. Qasımov İkram. Müasir Azərbaycan dilində terminlərin yaranma yolları. Bakı: Nurlan, 2000.
3. Qasımova X. Müstəqillik illərində kalka üsulu ilə yaranan terminlər.
4. Məmmədov Adış. Diplomatik lüğət. Bakı: “Qapp – poliqraf”, 2001, 336 s.
5. Məmmədov M. B. Müasir Azərbaycan ədəbi dilində termin yaradıcılığının bəzi üsulları. ATP, APİ, Bakı: 1988, s. 16-17.
6. Иссерлин Е.М Лексика и фразеологи современных дипломатических документов. // Материалы к курсу «Стили русского языка», М.,
7. Дипломатический словарь. т.I, М., 1971, с. 477.
8. Петрушевский И.П. Внутренняя политика Ахмеда Ак-Коюнлу // Известия АН ССР, Баку;1942 №2,с.13-17,
9. Garden G. Traife complet de diplomatic. P., 1932.
10. https://en.oxforddictionaries.com/definition/online.

А.Салманова

Создание способов дипломатических условий

Резюме

В этой статье рассматриваются «способы создания дипломатических терминов» на двух разных систематических языках. Реализация терминов на английском и азербайджанском языках возможна многими способами. Методы: a) метод шеи; b) метод abreviatur и c) подробная информация об условиях, полученных с помощью метода приобретения. Единицы национального языка выбираются по важной роли процесса прекращения. Таким образом, лексические единицы разных национальностей, а также элементы национальных языков отбираются в этом процессе с учетом их продуктивного характера. Помимо терминологии, полученной из внутренних возможностей языка, и терминов, полученных из абстрактного языка, термины, полученные в результате приобретения, играют большую роль в обогащении дипломатического языка. Роль терминов в формировании дипломатической терминологии как на азербайджанском, так и на английском языках бесспорна. Как правило,

изучение слов иностранцев на том или ином воспринимается как язык, отличный от языка что является очень сложным событием и является не просто приобретения рассматривается, другого более языков. Это чрезвычайно сложное событие, и оно не просто отождествляет модель с другими моделями, но и синонимом слов на одном языке в семантическую систему естественное изменение звуковой оболочки в соответствии с этого языка и новым качеством, которое присуще грамматических формам этого языка. Рефераты вновь возникающей дипломатии, которая является еще одним методом установления дипломатических терминов, в свою очередь способствуют расширению и обогащению лексического языка сопоставимых языков. Дипломатические термины, полученные как из Калки, так и из Абревиата, также важны для формирования словарного запаса обоих языков с разными системами.

Ключевые слова: дипломатия, язык, овладение, калька, абревиатур.

A.Salmanova

Creating ways of diplomatic terms

Summary

This article discusses the "ways of creating diplomatic terms" in two different systematic languages. The implementation of terms in English and Azerbaijani is possible with many methods. The methods are: a) the method of borrowings; b) abreviatur method and c) detailed information on the terms generated by the acquisition method. The national language units are selected by the important role of the termination process. Thus, the lexical units of different nationalities, as well as the elements of national languages, are selected in this process with their productive character. Besides the terminology derived from the language's internal capacities and the terms derived from the abstract language, the terms derived from the acquisition also have a major role in enriching the language of the diplomacy. The role of terms in the formation of diplomatic terminology in both Azerbaijani and English languages is indisputable. Typically, the study of the foreigners' words in this or that language is perceived as language other than language, which is a very complicated event and is not merely an identification of a model with other models, but also synonymous with the words in a single language into the semantic system, the natural change of the sound shell according to the phonological system of that language and the new quality that is inherent in the grammatical forms of that language. Abbreviator of newly emerging diplomacy, which is another method of establishing diplomatic terms, in turn contribute to the expanding and enriching of the lexical language of comparable languages. Diplomatic terms derived from both calc and abbreviator are also important in shaping vocabulary of both languages with different system.

Keywords: diplomacy, language, borrowings, calcs, abreviatur.

Redaksiyaya daxil olma tarixi: 12.04.2019
Çapa qəbul olunma tarixi: 06.0452019
Filologiya üzrə fəlsəfə doktoru, dosent Sevda Rzayeva tərəfindən çapa tövsiyə olunmuşdur.